***Mənim əvəzimə...***

***20 yanvarda şəhid olmuş və Salyanda dəfn edilmiş el oğlum Elçin Beytulla oğlu İmanovun xatirəsinə.***

Düzü görməmişdim səni bircə yol,
Heç tanış deyildi mənə adın da.
Ilk dəfə şəklini yasında gördüm,
Ömürlük həkk olub qaldın yadımda.

Deyirlər, şəhidə ağlamaq olmaz,
Duysa ağlayırsan-küsər, inciyər.
Ay oğul, hardandı məndə o dözüm,
Hardandı səndəki o ürək-ciyər?!

Yuxadır, kövrəkdir qoca ürəyi,
Izin ver, bir az da hələ hönkürüm.
Qorxma, qəm bulağım tükənən deyil,
Qurusa- suyundan borc verər Kürüm!

Gəldim ki, dərdini bölüm atanın,
Məni qabaqlayıb sən böldün, Elçin!
Gərək mən öləydim sənin yerinə,
Mənim əvəzimə sən öldün, Elçin!

Bir qız ürəyində sevgin yaşayır,
O qızıl qönçənin səndin bülbülü.
Bəlalı başına qara bağlayıb,
Kim belə qarğıdı o solğun gülü?!

Mərdləri axtarıb seçir həmişə,
Namərdi, qorxağı güllə “bəyənmir”.
Yaltaq doğulandan ikiqat olur,
Qeyrəti, qüruru ölüm əyəmmir!

Sən də polad idin, ay həkim balam,
Məlhəm olacaqdı bu xislət bizə.
Şəfa verəcəkdin yüz-yüz xəstəyə,
Yox, aman vermədi kəmfürsət bizə!

Ay qaragöz oğlan, qaraqaş oğlan,
Bəxtini qaraltdın yazıq ananın.
Atan da qar düşmüş saqqalı kimi,
Ağardıb yolunu məzarıstanın.

İllər yaşımıza yaş artırsa da,
Başımız üstündən ötsə də yellər.
Məbada, qəlbini üzməsin həsrət,
Səni ziyarətə gələcək ellər!

Qara möhür vurdu bu torpağa da,
Üzü qara olsun Yanvarın, Elçin!
Türbən Məkkəsidir indi Salyanın,
Hələ çox olacaq zəvvarın, Elçin!...

Əlizadə A. Mənim əvəzimə : şeir // Mədəniyyət. – 1991. – 16 yanvar.